# Tovuzda 20 Yanvar faciəsinin 35-ci ildönümü qeyd edilmişdir




Tovuzda "20 Yanvar faciəsi Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzidir" mövzusunda tədbir keçirilib. Tədbir Dövlət himninin səsləndirilməsi və şəhidlərin ruhunun birdəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.

Qeyd edilmişdir ki Azərbaycanın azadlığı uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 20 Yanvar faciəsindən 35 il ötür. Ancaq həmin o məşəqqətli günlər hər birimizin yaddaşına əbədi həkk olunub. Bu qırğın Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü, suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. Lakin düşmənlər buna nail ola bilmədilər. Bu gün biz 20 Yanvar faciəsinin ildönümünü suverenliyimizin tam bərpa olunduğu bir dövrdə - "Konstitusiya və Suverenlik İli"ndə qürurla qeyd edirik.

Çıxış edənlər bildirmişlər ki, 20 Yanvar faciəsinə etiraz edən Ümummilli Lider Heydər Əliyev həmin günlər özünün və ailəsinin həyatını təhlükə altına ataraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş, Kommunist Partiyası rejiminin Azərbaycanda həyata keçirdiyi qanlı aksiyanı qətiyyətlə pisləmiş, xalqımıza qarşı törədilən bu cinayətə, günahsız insanların öldürülməsinə etirazını bildirmiş, təqsirkarların cəzalandırılmasını tələb etmişdir. Ulu Öndər Heydər Əliyev həmin günlər Azərbaycan xalqının kədərini bölüşməklə yanaşı, qanlı 20 Yanvar hadisəsinə ilk siyasi-hüquqi qiymətini vermişdir.

Bu siyasət Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bu gün də davam etdirilir. Prezident 20 Yanvar şəhidlərinin ailələrinin və yaralılarının qayğılarını daim diqqət mərkəzində saxlayır. 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslər və şəhid ailələri üçün təqaüdlərin artırılması, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması bu diqqət və qayğının daha bir bariz nümunəsi kimi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.

Sonda 20 Yanvar faciəsinə həsr olunmuş videoçarx nümayiş olunmuş və faciəni əks etdirən sərgiyə baxış keçirilmişdir.

Azərbaycan. - 2025.- 19 yanvar (№ 12).- S.14.